UOT:82.

# AVROPA VƏ RUS TƏNQİDİ-ESTETİK FİKRİNİN XÜSUSİYYƏTLƏRİNİN M.F.AXUNDZADƏ TƏRƏFİNDƏN QAVRAYIŞI

***Dissertant İbrahimova Nübar Natiq qızı***
***Gəncə Dövlət Universiteti***
***nubar666777@gmail.com***

**Xülasə:** *Məqalədə biz Avropa və rus ədəbi-estetik fikrinin Azərbaycan dramaturqu M.F.Axundzadə tərəfindən qavrayışının formalaşması ilə bağlı münasibəti ortaya qoymağa çalışırıq. Bununla əlaqədar tərəfimizdən müəllifin komediyalarında və tənqidi fikirlərində fransız komedioqrafı Molyerin təsirindən, onun ədəbi-tənqidi və bədii baxışlarından necə yararlandığını incələyirik. Mövqeyimizin daha inandırıcı olması üçün zəruri olduqda biz həm də Azərbaycan tənqidinin tanınmış nümayəndələri F.Qasımzadə, S.Tağızadə, İ,Həbibbəyli, T.Salamoğlu, Ş.Şamıoğlu və b. monoqrafik araşdırmalarına və məqalələrinə müraciət edirik. Belə bir mövqedən çıxış edirik ki, M.F.Axundzadə dövr müəlliflərindən daha çox Azərbaycan tənqidi müstəvisini Avropa və rus fəlsəfi fikri ilə zənginləşdirməyə müvəffəq olmuşdur. Məhz onun köməyi ilə dünya bədii fikrinin nəzəri problemləri tədricən və ardıcıl olaraq ədəbiyyatımıza daxil olmuşdur.*

**Açar sözlər:** nəzəri probemlər, aktuallıq, tipoloji parametrlər, bədii-fəlsəfi, təfəkkür, Avropa fikri, rus ədəbi tənqidi, Molyer, yaradıcılıqla istifadə, qavrayış.

**Ключевые слова:** теоретические проблемы, актуальность, типологические параметры, художественно-философское мышление, европейская мысль, русская литературная критика, Мольер, творческое использование, восприятие.

**Keywords:** theoretical problems, relevance, typological parameters, artistic and philosophical thinking, European thought, Russian literary criticism, Molière, creative use, perception.

Dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatına və ədəbiyyatşünaslığına təsirindən bəhs edərkən ilk növbədə göz önünə M.F.Axundzadənin bədii yaradıcılığı gəlir. Belə olduqda onun nəzəri-estetik fikirlərinə müraciət etmək daha məntiqə uyğundur. Çünki M.F.Axundzadənin adı ilə böyük ədəbin normativ-dini şərq və fərdi üslubundan milli Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının dünya ədəbi prosesinə qoşulması ortaya çıxır. Maraqlıdır ki, M.F.Axundzadə öz yaradıcılığı və nəzəri görüşləri ilə Şərq, o cümlədən Azərbaycan ədəbi ənənələrini Avropa ədəbi ənənələri ilə daha çox üzvü şəkildə bağlamağa səy etdiyi görünməkdədir. Bu mənada yazıçının yaradıcılığının Avropa maarifçilik mədəniyyəti və ədəbiyyatı kontekstində izlənilməsi aktualdır. Lakin burada bir faktoru da nəzərə almaq lazımdır ki, Avropa maarifçiliyi ilə Azərbaycan maarifçiliyi arasında az qala 100 illik bir ara məsafəsi vardır. Belə nəzərə çarpacaq ara məsafəsinə baxmayaraq, “ağıl, düşüncə” əsrinin başlıca tipoloji parametrləri mahiyyət etibarı ilə hər iki region üçün eyni şəkildə də nəzərdən keçirilə bilər. Bu parametrlərdən, onların tipoloji oxşarlığından danışarkən biz maarifçilik mədəniyyətinin özünü sənətlə fəlsəfə və bədii təfəkkürlə fəlsəfi təfəkkür müstəvisində izləməyə üstünlük veririk. Eyni zamanda buraya rasionallığı və normativliyi də pozitiv proqram və digər estetik əsaslara söykənərək əlavə etdikdə M.F.Axundzadənin yaradıcılığına belə çeşidli rakursdan baxış ikili mahiyyət daşıyır. Məlumdur ki, M.F.Axundzadə şeir yaradıcılığından tutmuş digər janrlarda komediya, povest, satira, qrotesk, ədəbi tənqid və digər sahələrdə və janrlarda çoxsaylı əsərlər qoyub getmişdir.

Böyük ədibin yaradıcılığı dini-fəlsəfi, ictimai-mədəni, ədəbi-bədii, dram sənətinin orijinallığı, siyasi həyata kəskin münasibəti baxımından üfüqi-şaquli, çalın-çarpaz, ideyaların toqquşması müstəvisində təhllilərə cəlb edilmişdir. M.F.Axundzadənin “Təmsilat”ının müqayisəli şəkildə tədqiqi zamanı onun Avropa maarifçilik dramaturgiyası ilə maraqlı xüsusiyyətləri ortaya çıxır. Belə ki, M.F.Axundzadənin “Təmsilat”ında maarifçilik

dramaturgiyasının poetikası izlənilsə də, eyni zamanda Avropa dramaturgiyası ilə oxşarlıq heç də əksər hallarda üst-üstə düşmür. Məsələn, Bomarşe və Qoldoninin komediyalarını "Təmsilat"ın poetik strukturu ilə müqayisə etdikdə görürük ki, onlardan hər biri özünəməxsusluğu ilə seçilir. Nəzərə almalıyıq ki, Avropa müəlliflərinin bədii və komediya yaradıcılığı nə qədər diqqət çəkən olsa da, M.F.Axundzadə dramaturgiyası da nəzərə çarpan, maraq doğuran və çoxşaxəlidir. İndiyə qədər "M.F.Axundzadə və Avropa", "M.F.Axundzadə və Şərq", "M.F.Axundzadə və dünya ədəbiyyatı" mövzuları ilə bağlı onlarca monoqrafik araşdırmalar və məqalələr işıq üzü görüb. Bununla belə, biz burada M.F.Axundzadə yaradıcılığında dünya ədəbiyyatının nəzəri problemlərini qabartmaqda maraqlıyıq.

M.F.Axundzadə realizminə nəzər saldıqda ümumi şəkildə görürük ki, bu metod maarifçilik estetikası ilə şərtlənir. Burada ədibin yaradıcılığındakı maarifçilik realizminin genetik-tipoloji əlaqələrini digər bədii-estetik sistemlərlə də bağlamaq olar. Fikrimizcə, M.F.Axundzadə kimi ustad-realist sənətkarın yaradıcılığını Avropa ədəbiyyatı ilə əlaqələrdə götürmək olar və bu, son dərəcə zəruridir. Xarakteristikalarda, köməkçi vəziyyət və situasiyalarda, davranış və normalarda nə qədər fərqlər olsa da (məsələn, Molyerin "Qarpaqonunun ("Xəsis")" və M.F.Axundzadənin "Hacı Qara" (Sərgüzəşti-mərdi-xəsis)"), bu qəhrəmanlardan hər biri xarakter etibarı ilə mahiyyətcə statikdirlər [1, s. 10-11]. Əgər biz əsərlərin adına diqqət yetirmiş olub, onların semantik-struktur funksiyasına baxsaq, aydın görmək olar ki, bu iki obraz ətrafında baş verən hadisələr onlarla bağlı tam təsəvvür yaratmaq üçün fon kimi götürülməklə xarakterlərin mahiyyətinin daha əsaslı açılmasında mühüm rol oynaya bilər.

M.F.Axundzadənin fransız komedioqrafı İ.B.Molyerdən yaradıcılıqla istifadə etdiyini biz müqayisəli-tipoloji təhlil apararkən poetikanın digər prinsipləri əsasında da həyata keçirə bilərik ki, onlar da öz strukturuna görə klassik və maarifçiliyə bölünməsi ilə fərqlənməkdədir. Bu zaman-bədii və məkan-bədii (xronotopları) problemləri hər iki dram əsərində görünməkdədir. Əgər Molyerin komediyalarında klassisist dramın üç prinsipi müşahidə olunub, xronotop onun insan və şəxsiyyətlə bağlı konsepsiyası ilə əlaqəlidirsə, dramaturqun digər komediyalarında biz qapalı kompozisiya tipi ilə rastlaşırıq. Daha doğrusu, kompozisiyanın nüvəsi bütün zaman və məkan xronotoplarının mərkəzə meyilli olması və onların konsentrasiyasının ortada dayanması ilə xarakterizə olunursa, M.F.Axundzadənin dramaturgiyasında biz tamamilə başqa bir mənzərənin şahidi oluruq. Məsələn, "Hacı Qara" komediyasında bioqrafik, psixoloji və bədii zamanın qəhrəmanın davranış və hərəkəti ilə qarşılıqlı əlaqələrdə olduğunu görürük. Əlbəttə, dünya ədəbiyyatının nəzəri problemlərinin Azərbaycan ədəbiyyatşünaslığına gəlişini izlədikdə görürük ki, hər bir konkret yanaşmada rus ədəbiyyatının, rus nəzəri düşüncəsinin aparıcılığı qabardılırdı, M.F.Axundzadə və digər yazıçıların yaradıcı və nəzəri baxışlarının məhz rus ədəbiyyatından qidalandığı ön plana çəkilirdi. Bu, dövrün ideologiyası idi. Belə yanaşmaların dağıdılmasında hesab edirik ki, istedadlı tədqiqatçı S.Tağızadənin"Mirzə Fətəli Axundov və Qərbi Avropa ədəbiyyatı" mövzusunda yazıb müdafiə etdiyi doktorluq dissertasiyasının mühüm rolu qeyd edilməlidir [6].

Əsərlərini nəzərdən keçirdikdə yəqin etmək olur ki, M.F.Axunzadə təfəkkür etibarı ilə Avropa fəlsəfi düşüncəsinin daşıyıcısı olduğundan onun yaradıcılığı, nəzəri baxışları ilə təkcə ədəbiyyatşünaslar, tənqidçilər yox, həm də filosoflar, sosioloqlar, kulturoloqlar, estetlər və digər sahədən olan mütəxəssislər və tədqiqatçılar məşğul olmuşlar. Elə buna görə də M.F.Axunzadənin sənətə və ədəbiyyata baxışlarını, nəsr və dram janrının çiçəklənməsində, ədəbiyyatşünaslığımızda professionallığın inkişafı dünya ədəbiyyatının nəzəri problemlərindən ustalıqla yararlanıb, fikirlər irəli sürməsini İ.Həbibbəyli özünün "Ədəbiyyat nəzəriyyəsi yollarında" məqaləsində konkret nümunə və faktlara müraciət edərək Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk dəfə M.F.Axundzadənin Azərbaycan ədəbiyyat nəzəriyyəsinin əsasını qoyduğunu daha konsepsiyalaşmış şəkildə göstərmişdir [2, s. 3-25]. İ.Həbibbəylinin böyük ədibin nəzəri baxışlarının ədəbiyyatşünaslıq elmimiz üçün son dərəcə

önəmli olduğunu bu məqalədə bir neçə bənddə kompakt formalaşdırması onun M.F.Axundzadənin gördüyü işlərə doğru -düzgün metodoloji mövqedən yanaşdığını sübut etməkdədir. Məqalə müəllifinin böyük mütəfəkkir haqqında fikirlərini yığcam şəkildə aşağıdakı kimi xülasə edə bilərik: M.F.Axundzadənin ədəbiyyat nəzəriyyəsi haqqında görüşləri geniş, əhatəli və sistemlidir; ədəbiyyat haqqında irəli sürdüyü mülahizə və dəyərləndirmələri əsərlərində ardıcıl və sistemlidir; M.F.Axundzadənin ədəbiyyat nəzəriyyəsinə dair baxışları ədəbiyyatla bağlı adi dəyərləndirmə, yazıçı sözü yox, sözün elmi mənasında ədəbi yaradıcılığın qanunauyğunluqlarını ifadə edən düşünülmüş nəzəri müddəalardır; M.F.Axundzadənin ədəbiyyat nəzəriyyəsinə dair təlimi həm də yeni ədəbiyyat uğrunda mübarizədə maarifləndirici xarakter daşımışdır; M.F.Axundzadənin ədəbiyyat nəzəriyyəsi görüşləri realist ədəbiyyatın prinsiplərinin formalaşdırılmasından və müdafiəsindən ibarətdir və s. [2, s. 5].

M.F.Axundzadə ədəbiyyatda, ədəbiyyat nəzəriyyəsində islahatlar aparmaq yox, onu birbaşa dəyişdirməyin tərəfdarı idi – fikirini söyləyənlər böyük ədəbin nəzəri baxışlarına həmin dövrün fəlsəfi-estetik mövqeyindən yanaşsaydılar, daha yaxşı olardı. Yəqin F.Qasımzadənin, T.Salamoğlunun və başqalarının M.F.Axundzadəyə kəskin yöndən yanaşmaları da məhz bunun izahı ilə bağlı olmalıdır [3, s. 360; 4, s.17-18].

M.F.Axundzadənin öz nəzəri müddəalarını dünya ədəbiyyatının estetik baxışları (rus və Avropa) ilə formalaşdırması həm də onun bir ədib kimi dünyaya çıxışına şərait yaratmışdır. M.F.Axunzadənin dünya ədəbiyyatı problemlərindən qidalanması, həm də Azərbaycanın özünün dünya mədəniyyətinin xeyli xüsusiyyətlərini əldə etmək üçün zəmin yaradırdı. M.F.Axundzadə yaxşı duyub görürdü ki, Azərbaycan “müstəmləkə altında olan Qafqazın digər xalqları ilə müqayisədə daha çox ayrı-seçkiliyə məruz qalırdı” [5, s. 20].

Tədqiqatçıların böyük əksəriyyəti M.F.Axundzadənin dram yaradıcılığının rus və Avropa dramaturgiyasından bəhrələndiyini həm etiraf edir, həm də əsaslandırırlar. Belə yanaşma, əlbəttə, yetərincə ağlabatandır, eyni zamanda həm də təbiidir. M.F.Axundzadə öz milli bədii yaradıcılığını Avropa təfəkkürü ilə zənginləşdirərək, Azərbaycan ədəbiyyatına və ədəbiyyatşünaslığına yeni ifadə tərzi, duyum zənginliyi gətirmişdir. Hələ 1855-ci ildə “Qafqaz” qəzetinin 134-cü sayında onun dram yaradıcılığına həqiqi qiymətdə “M.F.Axundzadənin öz komediyalarını azərbaycanlıları avropalılardan ayıran fərqləri aradan qaldırmaq, Azərbaycan həyatını doğru-düzgün təsvir etmə məqsədilə etdiyi qeyd olunmuşdur. Bu isə onu sübut edir ki, M.F.Axundzadə “xalqın Avropa sivilizasiyasına qovuşması kimi vacib bir məsələnin gerçəkləşməsi yolunda ilk önəmli addımı atmışdır” [5, s. 65].

Öz dövrü üçün dərin tənqidçilik zəkasına, hüdudsuz erudisiyaya, qeyri-adi yaradıcılıq enerjisinə malik olan M.F.Axundzadə heç də orijinal nasir, mili dramaturgiyamızın banisi, Azərbaycan ədəbiyyatında realizm sənətinin əsasını qoyan əvəzsiz bir şəxsiyyət kimi daxil olmadı. Onun çeşidli Avropa düşüncəsini özündə ehtiva edən təfəkkürü, Qərbi Avropa və rus ədəbiyyatında intişar tapan bədii-estetik elementləri xüsusi bir bacarıq ilə yerli, mili koloritə və rənglərə uyğun olaraq Azərbaycanda bədii-fəlsəfi yaradıcılığın inkişafına böyük təkan verdi. Bu isə, məlum olduğu kimi, M.F.Axundzadənin XIX əsrin birinci yarısında Tiflisdə yaşayıb işlədiyi zaman onun gürcü və rus xalqının aparıcı fikir nümayəndələri Q.Orbeliani, A.Çavçavadze, Q.Eristavi, A.Sereteli, A.Berdzeneşvili, rus şərqşünasları, tarixçiləri, yazıçıları, dekabristləri V.A.Solloqub, Y.Polonski, A.Berje, A.A.Bestujev-Marlinski, N.F.Dubrovin və b. bu kimi təfəkkür daşıyıcıları ilə təmasları sayəsində mümkün olmuşdur. Digər tərəfdən Axundzadə nəinki qoça Şərq şairlərinin (Firdovsi, Nizami, Rumi, Cami, Hafiz, Sədi, Mahmud Şəbüstəri, İbn Sina və s.), həm də Qərbi Avropa, ictimai-siyasi, ədəbi-fəlsəfi təfəkkür daşıyıcılarının yaradıcılığından ustalıqla qidalanması əsaslı rol oynamışdır. Axundzadənin əsərlərində Homerdən tutmuş Petrarka, Erazm, Spinoza, Volter, Monteskyo, Russo, Didro, Renan, Holbax və b. adlarını çəkib, onların nəzəri-tənqidi baxışlarından yararlanması nəticə etibarı ilə onların əsərlərinin təhlilinə, bundan sonra bu təhlillərin onun

dramaturgiyasında, nəsrində, satirik yazılarında, nəzəri tənqidində yer almış, onun Avropa düşüncəli müəllif kimi formalaşmasında son dərəcə böyük rolu olmuşdur.

***Ədəbiyyat***


1. Алиев Дж.А. «Тамсилат» М.Ф.Ахундова и западноевропейская просветительская драматургия. Автореф. дисс. канд. филол. наук. Баку, 1991, 21 с.
2. Həbibbəyli İ. Ədəbiyyat nəzəriyyəsi yollarında. "Poetika. izm. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunub elmi əsərləri. Bakı, "Elm və təhsil", 2014, № 1, s. 3 – 25
3. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyat tarixi. Bakı, "Maarif",1974,488 s.
4. Salamoğlu T. Ədəbi tənqid tarixinə dair portret oçerklər. Bakı, 2011, s. 17 – 18
5. Şamıoğlu Ş. Mirzə Fətəli Axundzadə (dövrü, elmi bioqrafiyası və müasirləşmə konsepsiyası). Bakı, "Elm və təhsil", 2016, 184 s.
6. Тагизаде С. Мирза Фатали Ахундов и западноевропейская литература // Автореф. дисс. докт. филол. наук. Баку, 1991, 52 с.


## ВОСПРИЯТИЕ ОСОБЕННОСТЕЙ ЕВРОПЕЙСКОЙ И РУССКОЙ КРИТИКО-ЭСТЕТИЧЕСКОЙ МЫСЛИ В ВОЗЗРЕНИЯХ М.Ф.АХУНДЗАДЕ

***Ибрагимова Нубар Натиг гызы***

***Резюме***

В статье мы высказываем своё отношение к формированию восприятия особенностей европейской и русской литературно-эстетической мысли азербайджанским драматургом М.Ф.Ахундзаде. В этой связи нами оцениваются воззрения автора относительно создания им своих комедий и критических мыслей под воздействием французского комедиографа Мольера, его художественных взглядов относительно литературной критики. Для убедительности высказываемой позиции, где это необходимо, мы ссылаемся на монографические труды и статьи таких азербайджанских критиков, как Ф.Касумзаде, С.Тагизаде, И.Габиббейли, Т.Саламоглу, Ш.Шамыоглу и др. Полагаем, что М.Ф.Ахундзаде больше чем другие авторы, сумел ознакомить азербайджанскую критическую мысль с европейской и русской литературно-философской критикой. Именно в его лице теоретические проблемы мировой художественной мысли постепенно и последовательно вошли в нашу литературу.

## PERCEPTİON OF THE FEATURES OF EUROPEAN AND RUSSİAN CRİTİCAL AND AESTHETİC THOUGHT İN THE VİEWS OF M.F. AKHUNDZADE

***PhD student Ibrahimova Nubar Natig***

***Summary***

In the article, we express our attitude to the formation of the perception of the features of European and Russian literary and aesthetic thought by the Azerbaijani playwright M.F. Akhundzade. In this regard, we evaluate the author's views on the creation of his comedies and critical thoughts under the influence of the French comedian Moliere, his artistic views on literary criticism. For the persuasiveness of the expressed position, where necessary, we refer to the monographic works and articles of such Azerbaijani critics as F. Kasumzade, S. Tagizade, I. Habibbeyli, T. Salamoglu, Sh. Shamyoglu and others. We believe that MF Akhundzade, more than other authors, managed to acquaint Azerbaijani critical thought with European and Russian literary and philosophical criticism. It was in his person that the theoretical problems of world artistic thought gradually and consistently entered our literature.

***Rəyçi: prof. Y.N.İsmayılova***

***GDU-nun Azərbaycan və dünya ədəbiyyatı kaderasının 17 fevral 2023-cü il tarixli protokolundan çıxarış (pr № 07)***